**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№378/2** **13 avqust 2025-ci il**

## "Haqsız rəqabətin vəziyyətinə dair hesabat barədə"

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.3-cü "Haqsız rəqabətin vəziyyətinə dair hesabatın təqdim edilməsi" bəndinə uyğun olaraq audit sahəsində etik normaların qorunması, qiymət dempinqinin qarşısının alınması və şəffaf rəqabət mühitinin təmin olunması məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən təqdim olunmuş haqsız rəqabətin vəziyyətinə dair 2022–2025-ci illəri əhatə edən hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Haqsız rəqabətin vəziyyətinə dair hesabat" nəzərə alınsın (əlavə olunur).
2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki:

2.1. iki ay müddətində haqsız rəqabət və dempinq halları ilə bağlı maarifləndirici videoçarxların hazırlanaraq Palatanın sosial media hesablarında və KİV-də yerləşdirilməsi təmin edilsin;

2.2. Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (V.Talıbov) ilə birlikdə Palata Şurasının 2022-ci il 30 iyun tarixli 345/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət üzrə daxil olan sənədlərin dövriyyəsi barədə sxem"ə uyğun olaraq haqsız rəqabət və dempinq hallarına dair daxil olan müraciətlərin operativ və effektiv şəkildə araşdırılması təmin edilsin və araşdırma bitdikdən sonra on gün müddətində haqsız rəqabət və dempinq hallarına yol verən auditorlar barəsində daha sərt intizam və tənbeh tədbirlərinin görülməsi barədə təkliflərini Palatanın rəhbərliyinə təqdim etsinlər.

3. Bu qərarın və "Haqsız rəqabətin vəziyyətinə dair hesabat"ın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**